

# ALNINDA ÖMRÜN YAZISI

*Sakit TƏBİB*

**İnsan o vaxt ölür ki, dünyasını dəyişəndən sonra xatırlanmır. Xatırlanmaq əməllə bağlıdır. İstər pis olsun, istərsə də yaxşı. Hər ölümün öz kədəri, qəmi var. Elə ölüm var ki, bir ailənin kədərinə, qəminə çevrilir. Elə ölüm də var ki, sənət dünyasında böyük itki kimi qiymətləndirilir, hətta deyərdim ki, sənətin qəminə, kədərinə çevrilir. Məmməd Dəmirçioğlunun qəfildən dünyasını dəyişməsi rəssamlıq, heykəltaraşlıq və söz-sənət dünyasında sözün əsl mənasında çox böyük itki oldu. Öz fəaliyyətini sənətə və cəmiyyətə həsr edənləri ölümündən sonra xatırlamamaq günahdır. Xatırlamaq xatırlayanın mənəvi borcu, xatırlananın isə ruhi dincliyidir deyərdim. İnsan ruhunu, əməlini bu dünyada əmanət qoyub özü əbədiyyətə üz tutur.**

Haçansa ruh dostum M.Dəmirçioğlu haqqında xatirə yazmaq heç ağlıma gəlməzdi. O, ömrün həyat adlı sahilini adladı, keçdi Axirət sahilinə. Həmişə dostların səsinə hay verən idi. İndi nə əlimiz çatır, nə ünümüz yetir. Çünki əziz dostumuz bizdən min il, milyon il uzaqdadı. Səsimizin enerjisi isə hüdudsuz zaman məsafəsini qət etmək qüdrətində deyil. Əgər çatsaydı, o, hökmən cavab verərdi. M.Dəmirçioğlu gedəndə dostlarına getdiyi yeri nişan verib getmişdi. Axı, o, ruh adamı idi. Özünün dediyi kimi, "Mən uzun illərdi bu dünyada, insanlar arasında ruh kimi yaşayıram. İnsanlar arasında ruh kimi yaşamanın sirrini anlayanda bildim ki, göy üzünə dönmək mənim doğal haqqımdı".

**Nədir adam deyilən?**
**Adam döyən döyülən.**
**Mən adam ha döyüləm,**
**Ruham haləmdə gəl gəz.**

Dəmirçioğlunu ruh şairi-sulfi şair kimi qəbul edirlər. Onun mistik düşüncə tərzi Şərq mistisizmi ilə yoğrulmuşdur. Şairin fikrincə, sufilər ilahi gözəlliklərin aşiqidirlər. Bu ilahi sevgilərin fövqündə dayanan isə şübhəsiz ki, Ulu Tanrıdır. Bu eşqi ürəyində yaşadanlar:

**Yer altında qalan su,**
**Sevdalara dolan su,**
**Bulaq eşqi olan su,**
**Daşı dəlib çıxacaq.**

Şair astronomik real təbiət hadisəsinə - gecənin gündüzlə əvəz olunmasına, səhərin açılmasına mistik düşüncə ilə aşağıdakı kimi yanaşır:

**Səhər açılınca gecə can verir,**
**Üfüqün qırmızı tül körpüsündə.**

Deməli, hər bir qaranlığın bətnində işıq var. Əslində hər bir qaranlığın, zülmətin ölümü işığın doğulmasına səbəb olur. Ölüm isə yeni həyatın başlanğıcını qoyur. Hər şey qaranlıqda yaranır. İnsan da ana bətninin qaranlığında bəşəri forma alır.Yaranış qaranlıqda, doğuluş isə işığadır.Ömür isə qaranlıqdan (ana bətnindən) qaranlığa (qəbir evi) gedən yoldur.

Məmməd Dəmirçioğlu mənimlə söhbət zamanı deyirdi: "60 yaş məni tələsdirir. Hərdən mənə elə gəlir ki, istədiyim şeirləri, tabloları hələ ərsəyə gətirə bilməmişəm. Onları yaratmaq üçün isə çox az vaxt qalıb". Ömrün vəfasızlığından ehtiyat edirdi. Qızıl kimi anları kül kimi sovurmaq istəmirdi. Çalışırdı ki, deyilməmiş sözü qalmasın.

Ancaq bu gözəl sənətkarı narahat edən məsələlər o qədər idi ki, onların həllinə bir neçə Dəmirçioğlu ömrü lazım idi. 60 yaş yaradıcı adamlar üçün həm də böyük yaşdır axı! 60 yaş mənə xatırladır ki boş şeylərə çox vaxt sərf etmişəm. Elə bil ki, ölümü ürəyinə dammışdı, deyirdi: "Hər günümü, hər anımı, hər yazılan şeirimi sonuncu hesab edirəm."

**Allahımdan əmanətdir bir canım,**
**Könüllərə ziyarətdir pir canım,**
**Laylalarla ovunmayan kür canım.**
**Torpağımla qovuşmasa ovunmaz.**

M.Dəmirçioğlunun yaradıcılığı haqqında geniş fikir söyləmək məqsədində deyiləm. Onun yaradıcılığı haqqında tanınmış qələm sahibləri - millət vəkili, AMEA-nın müxbir üzvü Nizami Cəfərov, AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilov, Xalq şairi Nəriman Həsənzadə, filologiya elmləri doktoru, professor Nizami Tağısoy, Vaqif Nəsib Sarıhüseynoğlu, filologiya elmləri doktoru Rüstəm Kamal, filologiya üzrə fəsəfə doktoru Nuridə Səməd, Adil Mirseyid, filologiya elmlər doktoru Vaqif Yusifli, yazıçı-publisist Alıhüsyn Cavadoğlu, tanınmış şair, Əməkdar İncəsənət Xadimi Barat Vüsal, "Ədalət" qəzetinin redaktoru Əbülfət Mədətoğlu, Beynəlxalq R.Rza mükafatı laureatı, şair İnqilab İsaq, Azərbaycanın Əməkdar memarı Ömər Qoçulu, Şəmsi Qoca və başqaları kifayət dərəcədə yüksək fikir söyləmişlər və bir tərəfdə dindən qaynaqlanan təsəvvüf, irfan, digər tərəfdə daha çox dildən, folklordan qaynaqlanan milli-etnik düşüncə ənənələrinin yaradıcılığında üstünlük təşkil etdiyini göstərmişlər.

**Göynən gedən ağ bulud.**
**Lələk bulud, dağ bulud.**
**Gözlərini sağ, bulud,**
**Səhrada ac olan var.**
**Göy üzü kövrəlibdi,**
**Dindirsən ağlayacaq.**

**Torpaq tək əkərdi məni,**
**Becərib biçərdi məni.**
**Toxum tək səpərdi məni**
**Atardı göylər üzünə.**

**Bir gecənin ortası,**
**Bir mən, bir ay işığı,**
**Gözlərimdən süzülür.**
**Dünyanın yaraşığı.**

**Bir nəfəs uçurmuşam,**
**Al nəfəsində saxla,**
**Səs dodaqla öpüşür,**
**Məni səsində saxla.**

Biz tez-tez M.Dəmirçioğlu ilə Gəncədəki Xan bağında görüşərdik. O, həmişə doğulduğu İncə dərəsindən, oranın insanlarından ürək dolusu söhbət açardı. "İncə dərəsi üç kənddən ibarətdir və bir yumruğa bənzəyir" deyirdi. Bu birlik bütün türk və islam dünyasına da qismət olsun. Aslanbəyli kəndində bərqərar olmuş Hacı Mahmud Əfəndi Qəraninin türbəsi isə ən müqəddəs türbələrindən, ziyarətgahlarından biri sayıla bilər. Ona görə ki, Hacı Mahmud Əfəndi öz yaxın dostu Seyid Yasin Əfəndi dünyadan köçəndə onu öz kəndində torpağa tapşırmış, üstündə Göy türbəni inşa etdirmiş və özünün vəsiyyətinə əsasən Seyid Yasin Əfəndinin məzarı ya-



nında dəfn olunmuşdu. İndi həmin türbədə iki övliya - təriqətcə şiə Seyid Yasin Əfəndi və təriqətcə sünnü Hacı Mahmud Əfəndi qoşa uyumaqdadırlar. M.Dəmirçioğlu bunu misal göstərməklə islam dünyasına ağır zərbə olan sünnü-şiə təriqətlərinə qarşı çıxırdı və bu məkanı Turan ellərinin birliyini əks etdirən tarixi ziyarət abidəsi kimi qiymətləndirirdi.

M.Dəmirçioğlunun dostları çox idi. Çay süfrəsi arxasında söhbət edərkən ona çoxlu zənglər gəlirdi. Hətta Türkiyənin tanınmış qələm sahiblərinin zəng vuraraq əziz dostumuzu Türkiyəyə dəvət etmələrinin dəfələrlə şahidi olmuşam. M.Dəmirçioğlu dostlarla səmimi münasibət qururdu. Onların problemlərinə öz problemi kimi yanaşırdı və bu problemləri həll etmək üçün əlindən gələni edirdi.

Bir dəfə mənə zəng vurub həyəcanlı səslə dedi:

- Sakit Təbib, bir dostumun qızı ağır xəstədir. Onu bu gecə Tiflis şəhərinə həkimə aparmaq qərarına gəlmişik. Xahiş edirəm, sən də gəl, bir bax, öz fikirlərini de.

Mənsə tərəddüd içində:

- Mən nə kömək edə bilərəm? - dedim.

O, təkidlə:

- Sənin fikrin bizə çox lazımdır. Hardasan? Arxanca gəlirəm - dedi.

Az keçməmiş Dəmirçioğlunun maşınında dostunun evinə gedirdik. O, yolda:

- Bir gözəl cavan qızdır, adamın hayfı gəlir. İki sutkadır yuxudan ayılmır -dedi.

Mən otağa daxil oldum. Otaqda çoxlu sayda adam vardı. Hamı dinməz, sakit dayanmışdı. Həyəcanla mənim nə deyəcəyimi gözləyirdilər. İlk baxışdaca qızın sifətində ölüm işartılarının və həyat üçün qorxulu vəziyyətin olmadığını hiss etdim. Məlum oldi ki, qızda qıcolma tutmaları var. O, İran İslam Respublikasında müalicə alırmış. Müalicə üçün dərmanları da oradan alıblarmış. Qızın vəziyyəti xeyli yaxşılaşmışdı. Ancaq müəyyən vaxtdan sonra dərmanlar qutarmış, qıcolma yenidən daha güclü şəkildə baş vermişdi. Qızı Gəncədəki 3 saylı təcili yardım xəstəxanasına aparmışdılar. Həkimlərin böyük səyi nəticəsində qıcolmanı aradan qaldırıb xəstəni evə buraxmışdılar. Mən hiss etdim ki, həkimlər qızı ağır status vəziyyətindən çıxartmaq üçün dərmanların yüksək dozasından istifadə etmək məcburiyyətində qalmışlar. Bu hal məni sevindirdi və tez dilləndim:

- Belə hesab edim ki, bu qız sabah saat 3-ə qədər ayılacaq, narhat olmayın. Onu Tiflisə aparmağa ehtiyac yoxdur.

Mən ilk dəfə olaraq sözün belə sehrli gücünü o insanların üzlərində hiss etdim. Otaqdakıların (ata, ana, baba, nənə, bacıların, qonşuların) gözlərində gördüyüm sevinci sözlə ifadə etməyə çətinlik çəkirəm. Sanki onlar ağır pisixoloji yükün təsirindən azad olmuşdular. Bu zaman M.Dəmirçioğlunun da uşaq təki sevindiyinin şahidi oldum. Evə gəldim. Qeyri-ixtiyari "Birdən qız ayılmasa?.." deyə içimdə bir narahatlıq, təlaş və qorxu baş qaldırdı.

Axı mən günahkar olsaydım onda özümü heç vaxt bağışlaya bilməzdim.

Gecəni narahat yatdım. Səhər işə gəlmişdim, özümdə deyildim. İçimlə danışırdım. Düz saat 3-də telefonuma zəng gəldi.

Bu Dəmirçioğlu idi. Sevinc dolu səslə:

- Ayə, sən əsl loğmansanmış, xəstən ayılıb!.. Gözün aydın ! - dedi.

Bu anda çox sevindim. İçimdə olan həyəcan, qorxu, təlaş yox oldu.

M.Dəmirçioğlu dedi:

- Qızın valideynləri səni evlərində bir yaxşı xəngəl qonaqlığına dəvət edirlər.

Mən isə imtina etdim və dedim:

- Axı mənim o qıza heç bir tibbi köməyim olmamışdır. Ulu Tanrı özü ona yeni ömür bəxş etdi.

Dünən var olan bu gün xatirədir. Onunla bağlı xatirələrim çoxdur. Anası haqda danışıb anasının sadəlövh düşüncəsinə gülümsünərdi. Söyləyirdi ki, mən Özbəkistanda yaşayırdım. Anamı yanıma gətirmişdim. Bir neçə gündən sonra darıxmağa başladı. Onu heç nə ilə ovuda bilmirdim. Bir dəfə anam dedi:

- Ay bala, Bakıya gedən olsa denən, bir Bakı televizoru alıb gətirsinlər. Televizorda özbəklərin dilini (qir-qur danışırlar) heç cürə başa düşmürəm.

Rəhmətlik bu hadisəni tez tez xatırlayıb, gülərdi.

M.Dəmirçioğlu ilə çox isti münasibətim yaranmışdı. Tez-tez zəng vurub mənimlə görüşmək istədiyini bildirirdi. Günlərin birində məni təkidlə Gəncədə kirayədə yaşadığı evə dəvət etdi. Qapını döydüm. Ev sahibəsi qapını açdı. Dəmirçioğlunun evdə olub-olmadığını soruşdum. Onun mağazaya getdiyini və tez gələcəyini öyrəndim. Xanım məni evə dəvət etdi. Mən evə daxil olmadım və çöldə gözləyəcəyimi bildirdim. Çox keçmədi ki, Dəmirçioğlunun evə bazarlıq edib gəldiyini gördüm. O, yüksək səslə Qazax ləhcəsində dedi:

- Ayə, çöldə niyə dayanersan? Niyə içəri keçmersən?

Mən:

- Kişisiz evə girməzlər - dedim.

O, bir anlığına dayandı. Elə bil, xəyalən harasa gedib qayıtdı. Məni qucaqlayıb öpdü və dedi:

- Ayə, sən heç bilersənmi nə dedin?!. Özünü görmürsən. Sən çox böyük adamsan!

Biz evə daxil olduq. Onun qaldığı otaqda divar boyunca nazik taxta lövhə var idi. Lövhədə Dəmirçioğlunun tamamlanmamış rəsm əsərini gördüm. O, şəkli mənə göstərərək dedi:

- Hələ tamamlanmayıb, hazır olanda hökmən sənin baxmağını istərdim.

Süfrə açıldı. Yeyib-içməyə başladıq. O, məni poeziya və ədəbiyyata aid suallar atəşinə tutmuşdu. Söhbətimiz maraqlı alındı. Nəhayət, mən getmək istədiyimi bildirəndə, o, dedi:

- Hara gedersən?!.

Bu zaman diktofonu qoşdu. Nə danışmışdımsa hamısı diktofonda səsləndi. Bu işdən mən xəbərsiz idim. M.Dəmirçioğlu gülərək dedi - Qağa, nə danışmısan, olduğu kimi "Ədalət" qəzetinin şənbə nömrəsində oxuyarsan.

Doğurdan da "Sakit Təbiblə könül söhbəti" başlığı altında müsahibəm bir neçə gündən sonra hənim qəzetdə dərc olundu.

M.Dəmirçioğlu iddiasız, maraqlı ruhani dünyagörüşünə, yüksək elitar mədəniyyət malik adam idi. Üzündə Türk xaqanlarına xas olan xarakterik qırışlar vardı. Bu qırışlar onun sifətinə daha mənalı bir görkəm veirir və müdrik, kamil insan olduğundan xəbər verirdi. Yerişində az sezilən, qəribə bir ləngər var idi. Gəncəyə çox isinişmişdi. Deyirdi: "Könlümdən keçir ki, ömrümün qocalıq çağını elə bu şəhərdə yaşayım".

Heyf ki, M.Dəmirçioğluna bu qismət olmadı.

Mən telefonumdan M.Dəmirçioğlunun nömrəsini silməmişəm. Mənə elə gəlir ki, nə vaxtsa telefon səslənəcək və Dəmirçioğlu deyəcək:

- Təbib, Gəncəyə yaxınlaşıram. Harda görüşək?..

Düşüncələrimi ömrünü Qazaxda yaşayan gözəl şairimiz Barat Vüsalın aşağıdakı fikri ilə tamamlamaq istəyirəm:

**Kimlər öləsidi, kimlər öləsi,**
**Amma kimlər ölür, hayıf deyirəm!..**

Bu dəyərli insanı cismani itirməyimizə "Heyf!..Heyf!..Heyf!.." deyirəm. Ruhun şad olsun, qardaşım!

**Gəncə**